**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AZƏRBAYCAN – UNESCO ƏMƏKDAŞLIĞININ İSTİQAMƏTLƏR VƏ PRİNSİPLƏRİ

İxtisas: 5901.01 – Beynəlxalq münasibətlər

Elm sahəsi: Siyasi elmlər

İddiaçı: **Nərmin Fərzəli qızı Əkbərli**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı- 2025**

Dissertasiya işi Bakı Slavyan Universitetinin Beynəlxalq münasibətlər kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: fəlsəfə elmləri doktoru, professor
**Məmməd Arif oğlu Əliyev**

Rəsmi opponentlər: siyasi elmlər doktoru, professor
**Elman Xudam oğlu Nəsirov**

Siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent
**Nigar Fikrət qızı Qəhrəmanova**

siyasi elmlər doktoru
**Sənubər Adışirin qızı Babaşova**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının nəzdində fəaliyyət göstərən FD 2.30 Dissertasiya Şurası

Dissertasiya şurasının sədri: akademik
**Urxan Kazım oğlu Ələkbərov**

Dissertasiya şurasının elmi katibi: siyasi elmlər doktoru, dosent
**Sevda Ağamirzə qızı Əliyeva**

Elmi Seminarın sədri: siyasi elmlər doktoru, professor
**Elçin İldırım oğlu Əhmədov**

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

Məlum olduğu kimi, müasir mərhələdə beynəlxalq humanitar əlaqələr həyat fəaliyyətinin müxtəlif sahələrinin qloballaşması ilə səciyyələnir. Müasir zamanın imperativi rolunda sivilizasiyalararası dialoq çıxış etməkdədir. Bu olmadan müxtəlif dəyərlər sisteminin hüquq bərabərliyindən və inkişaf modellərinin müxtəlifliyindən danışmaq mümkün deyildir. Qloballaşma bir tərəfdən milli mədəniyyətlərin qarşılıqlı zənginləşməsini və inteqrasiyasını şərtləndirir, digər tərəfdən ölkələrin və xalqların milli mədəniyyətlərini ciddi təhlükə qarşısında qoyur. Bununla yanaşı, qlobal proseslərin təqdim etdiyi mühüm format mədəniyyətlərarası dialoqun təmin edilməsi istiqamətində kollektiv səyləri şərtləndirir.

Ümummilli lider Heydər Əliyevin qeyd etdiyi kimi "*Biz inanırıq ki, bütün insanlar aralarında olan fərqlərə baxmayaraq, eyni tarixi köklərə malikdir və həyatda eyni məqsədlərə nail olmaq istəyirlər. Bəşəriyyətin keçmişi və bu günü bizə dəhşətli müharibələrdən xəbər verməyinə baxmayaraq, inanırıq ki, onun gələcəyi sülhdür.*

*Bu inama sadiq olaraq və bütün insanlara sülh arzulayaraq bildirmək istəyirəm ki, biz UNESCO-nun insanların sülh hüququ haqqında Bəyannaməsinin qəbul edilməsi təklifini təqdirəlayiq hal hesab edirik və Bəyannamə layihəsini dəstəkləyirik.*"[1]

Bu baxımdan dissertasiya mövzusunun aktuallığını aşağıdakı kimi əsaslandıra bilərik:

- Qeyd edək ki, bu zaman müxtəlif mədəniyyətlər arasında əlaqələndirici rolunda beynəlxalq təşkilatlar çıxış edir. Belə beynəlxalq təşkilatların rolu getdikcə daha da güclənməkdədir. Çünki qloballaşmanın sürətlə getdiyi bir dövrdə mədəniyyətlərarası dialoqun təmin olunması istiqamətində birtərəfli və təkbaşına fəaliyyət göstərmək qeyri-mümkündür. Bu baxımdan, mədəniyyətlərarası dialoqun yaradılması və inkişaf etdirilməsi prosesində UNESCO-nun rolunun daha dərindən tədqiq edilməsi əhəmiyyətlidir.

---

[1] Əliyev, H. Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H. Əliyev. – Bakı: Azərnəşr, – c. 12. – 2004, – s. 150.

- Qeyd etmək lazımdır ki, dünyada cərəyan edən proseslərin iştirakçılarının qarşılıqlı fəaliyyətlərini humanitar aspektləri nəzərə almadan dərindən təhlil etmək qeyri-mümkündür. Bununla yanaşı, humanitar qarşılıqlı fəaliyyətin qlobal tranformasiyaları siyasi proseslərdən təcrid olunmuş şəkildə nəzərdən keçirilə bilməz. Məhz siyasi proseslərdə mədəniyyət qlobal maraqların bələdçisi rolunda çıxış edir. Bu baxımdan UNESCO-nun təsirli rolunu əsaslandırmaq üçün əlavə arqumentlərə ehtiyac yoxdur. Əslində UNESCO tərəfindən həyata keçirilən missiya tam siyasi xarakterlidir. Belə ki, təşkilat sivilizasiya əlamətlərinə görə dünyanın parçalanmasının qarşısını almaq üçün üzv dövlətləri səfərbər edir. Bu məqsədə çatmaq üçün mədəniyyətlərarası dialoqun, həmçinin beynəlxalq mədəni-humanitar əməkdaşlığın inkişafı tələb olunur. Mədəniyyətlərarası dialoqun yaradılması və inkişaf etdirilməsi xalqlar, dövlətlər arasında ziddiyyətlərin aradan qaldırılmasının ən optimal yolu hesab olunur. Bu baxımdan, UNESCO-nun dəstəklədiyi mədəniyyətlərarası dialoq probleminin də dissertasiya işi çərçivəsində tədqiq edilməsi kifayət qədər aktuallıq kəsb edir.

- Bildiyimiz kimi, minilliklər boyu etnomədəni müxtəlifliklər demək olar ki, bütün iri siyasi və sosial strukturlar üçün səciyyəvi olmuşdur. Mədəni homogenizasiya yalnız kapitalizmin sürətli inkişafından sonra əlamətlərini biruzə verməyə başlamışdır. Lakin hələ XIX əsrdə Qərbi Avropa ölkələrində mədəni monolitlikdən söhbət gedə bilməzdi. Hətta, sonrakı zamanda onu tam təmin etmək qeyri-mümkün olmuşdur. Bu baxımdan, mədəni müxtəliflik məsələsi bütün tarixi dövrlərdə öz aktuallığını saxlayır.

- Beynəlxalq mədəni-humanitar əməkdaşlığın inkişaf etdirilməsi Azərbaycan Respublikasının xarici siyasi fəaliyyətində mərkəzi yerlərdən birini tutur. Azərbaycan Respublikasının beynəlxalq ictimai şüurda pozitiv imicinin formalaşdırılması və gücləndirilməsi üçün humanitar amilə istinad etmək olduqca səmərəli nəticələrin əldə olunmasını təmin edir. Dövlətin müsbət imicinin möhkəmləndirilməsi isə, ona milli maraqları daha etibarlı müdafiə etməyə, siyasi, humanitar və iqtisadi layihələri daha uğurla həyata keçirməyə imkan verir. Azərbaycan Respublikası xarici humanitar siyasətini davamlı olaraq inkişaf etdirməklə, çoxsaylı mühüm

layihələrin səmərəli şəkildə həyata keçirilməsini təmin edə bilmişdir. Azərbaycan Respublikasının humanitar siyasətinin prinsipləri və reallaşdırılması mexanizmləri haqqında daha əhatəli təsəvvürlərə malik olmaq üçün müvafiq istiqamətdə elmi tədqiqatların aparılması olduqca vacibdir.

- Azərbaycan Respublikası ilə UNESCO arasında əməkdaşlığın inkişaf etdirilməsi ölkəmiz üçün mühüm dividentlər gətirir. Belə ki, UNESCO qeyri-zorakı təsir metodlarının formalaşdırılması və möhkəmləndirilməsi üçün əhəmiyyətli potensiala malikdir. Azərbaycan Respublikası da məhz qeyri-zorakı vasitələrə və prinsiplərə üstünlük verməklə milli maraqlarını təmin etməyə, prioritetlərini həyata keçirməyə çalışır. Bu baxımdan, UNESCO-nun qeyd olunan potensialı Azərbaycan Respublikası üçün də mühüm əhəmiyyət kəsb edir. Azərbaycan Respublikası öz zəngin mədəniyyətini dünyaya tanıtmaqla, ictimai diplomatiyanın imkanlarından maksimum istifadə etməklə, dünya siyasi proseslərində rolunu gücləndirməyə çalışır. Göründüyü kimi, Azərbaycan – UNESCO qarşılıqlı əlaqələrinin müxtəlif aspektlərinin yaxından tədqiq edilməsi müasir mərhələ üçün ciddi aktuallıq kəsb edir.

- Dünya proseslərinin inkişaf məntiqi aydın göstərir ki, yaxın gələcəkdə UNESCO beynəlxalq mədəni-humanitar münasibətlərin yeni xarakterinin və ya imicinin formalaşmasında həlledici rol oynayacaqdır. Bu rol dünya mədəniyyətlərinin və sivilizasiyalarının qarşılıqlı inteqrasiyanın və qarşılıqlı şəkildə biri-birilərini zənginləşdirməsini təmin etməkdən ibarətdir. Bu baxımdan, Azərbaycan Respublikasının UNESCO-nun bu imkanlarından və potensialından istifadə etmək marağı böyükdür. Çünki, Azərbaycan Respublikası dünya səviyyəsində mədəniyyətlərarası və sivilizasiyalararası dialoqun yaradılması və inkişaf etdirilməsi istiqamətində fəallıq nümayiş etdirir. Azərbaycanın bu istiqamətdə fəaliyyətində UNESCO ilə əməkdaşlığın rolunun tədqiq edilməsi də dissertasiya mövzusunun aktuallığını sübut edən məqamlardandır.

- Azərbaycan Respublikası ilə UNESCO arasında əməkdaşlıq özünün səciyyəvi tərəfləri ilə seçilir. Belə ki, Azərbaycan Respublikası həyat fəaliyyətinin bütün sferalarının yeniləndirilməsi

istiqamətində UNESCO ilə əməkdaşlığın verdiyi imkanlardan maksimum faydalanmağa çalışır. Bununla yanaşı, Azərbaycan Respublikası davamlı olaraq, UNESCO ilə əməkdaşlığın keyfiyyətcə yeni vektorlarının tapılmasında və inkişaf etdirilməsində maraqlı olduğunu göstərir. Çünki, yeni əməkdaşlıq istiqamətləri milli maraqların daha da etibarlı qorunması imkanlarını əhəmiyyətli dərəcədə artırır. Nəzərə almaq lazımdır ki, müasir mərhələdə mədəni-humanitar sahədə, təbiət, sosial-humanitar elmlər, kommunikasiya və informasiya sahələrində maraqların qorunması, əməkdaşlığın inkişaf etdirilməsi olduqca əhəmiyyətlidir. Azərbaycan Respublikası UNESCO ilə qeyd olunan sahələrdə yaxından əməkdaşlıq etməklə, həmçinin müxtəlif proqram və layihələrin də həyata keçirilməsi imkanlarını qazanmış olur. Belə proqram və layihələr də müvafiq istiqamətlərdə real keyfiyyət dəyişikliklərini əldə etməyə imkan verir. Bu baxımdan, Azərbaycan Respublikasının UNESCO ilə əməkdaşlıq çərçivəsində hansı proqram və layihələrdə iştirak etdiyini və onların töhfəsini müəyyənləşdirmək üçün müvafiq istiqamətdə də elmi-tədqiqat işlərinin həyata keçirilməsi vacibdir.

- Nəzərə almaq lazımdır ki, Azərbaycan Respublikası UNESCO ilə əməkdaşlıq çərçivəsində həm öz prioritetlərini həyata keçirir, həm də təşkilatın fəaliyyətinin daha da keyfiyyətli olması istiqamətində ciddi töhfələr verir. Belə ki, UNESCO beynəlxalq mədəniyyətlərarası dialoqun təmin edilməsi istiqamətində müxtəlif layihələr həyata keçirir. Bu layihələr seminarların, konfransların, dəyirmi masaların və s. təşkil olunması ilə yanaşı digər praktiki addımlardan ibarətdir. Azərbaycan Respublikası artıq mədəniyyətlərarası dialoq platformasına çevrilmişdir. Bundan başqa, UNESCO-nun mühüm missiyasına uyğun olaraq, Azərbaycan Respublikası dünya xalqlarının mədəni irsinin qorunması istiqamətində ciddi təşəbbüslərlə çıxış edir və praktiki addımlar atır. Azərbaycan Respublikasının bu istiqamətdə də fəaliyyətinin səmərəliliyini təmin edən elementlərin müəyyənləşdirərək, üzə çıxarılması elmi tədqiqatların əhəmiyyətinə dəlalət edən məqamlardandır.

- Müasir dünyada mədəni irsin qorunması məsələsi həm milli kimliyin, həm də beynəlxalq hüquq və humanitar dəyərlərin mühüm

tərkib hissəsi hesab olunur. Silahlı münaqişələr zamanı maddi-mədəniyyət nümunələrinin, tarixi abidələrin saxtalaşdırılması və dağıdılması yalnız bir dövlətin deyil, eyni zamanda bütün bəşəriyyətin mədəniyyətinə qarşı təhdid hesab edilir. İkinci Qarabağ müharibəsindən sonra Azərbaycanın azad edilmiş ərazilərində tarixi abidələrin məhv edilməsi, saxtalaşdırılaraq özününküləşdirilməsi, təhqir edilməsi faktları bu problemin aktuallığını daha da artırmışdır.

- UNESCO-nun bu proseslərə münasibəti, obyektiv mövqedə olması, faktaraşdırıcı missiya həyata keçirməsi beynəlxalq mədəni irsin qorunması mexanizmlərinin səmərəliliyinin dəyərləndirilməsi baxımından mühüm əhəmiyyət daşıyır. Bu baxımdan Azərbaycanın mədəni irsinin qorunması, eyni zamanda Ermənistan – Azərbaycan Dağlıq Qarabağ münaqişəsi dövründə ermənilər tərəfindən dağıdılmış və saxtalaşdırılmış Azərbaycanın tarixi abidələrinin, mədəniyyət nümunələrinin yenidən bərpası, bu istiqamətdə ədalətin bərpa edilməsi və UNESCO ilə əməkdaşlığın gücləndirilməsi siyasi aktuallıq kəsb edir.

Elm, təhsil, mədəniyyət sahəsində əməkdaşlığın inkişaf etdirilməsi dünyanı məşğul etməklə, çoxsaylı elmi-tədqiqat işlərinin həyata keçirilməsini şərtləndirmişdir. Azərbaycan Respublikası ilə UNESCO arasında mədəni əlaqələrin öyrənilməsi əksər hallarda ölkənin humanitar xarici siyasəti, multikulturalizm siyasətinin ayrı-ayrı tərəflərinin tədqiqi zamanı həyata keçirilir. Bu baxımdan, Azərbaycan Respublikasında mədəni müxtəliflik probleminə həsr olunmuş çoxsaylı elmi tədqiqat işləri meydana gəlmişdir. Məsələn, tədqiqatçılardan S.Əhədova,[2] N.Abbasov,[3] F.Məmmədov, K.Abdullayev,[4] E.Nəcəfov,[5] E.Nəsirov,[6] E.Əhmədov, N.Əfəndiyeva[7]

[2] Əhədova, S.A. Mədəniyyətlərin qarşılıqlı əlaqələrində YUNESKO-nun rolu / S.A.Əhədova. – Bakı: Beynəlxalq kitab, – 2014. – 80 s.
[3] Abbasov, N. Mədəniyyət siyasəti və mənəvi dəyərlər / N.Abbasov. – Bakı, – 2009. – 444 s.
[4] Abdullayev, K. Ulu öndər Azərbaycan multikulturalizminin siyasi banisidir // Azərbaycan, – 2014, 23 iyul. – s. 7.
[5] Nəcəfov, E. Azərbaycan Respublikasının multikulturalizm siyasətinin onun xarici siyasətinə təsiri // Strateji təhlil, – 2016, № 1-2 (15-16), – s. 35-42.

və digərləri mədəniyyətin cəmiyyətdə rolunu, multikulturalizm probleminin müxtəlif aspektlərini, Azərbaycan Respublikasının beynəlxalq humanitar əlaqələrini dərindən tədqiq etmişlər. Ayrıca olaraq, Azərbaycan Respublikası ilə UNESCO arasında əməkdaşlığın vəziyyəti ilə də bağlı bir sıra tədqiqatlara, elmi əsərlərə rast gəlmək mümkündür.

A.R.Fərmanovanın elmi araşdırmasında "Azərbaycan Respublikasının beynəlxalq əlaqələrində YUNESKO-nun rolu" mövzusunda tədqiqatında UNESCO-nun vəzifəsi və fəaliyyət istiqamətləri, Azərbaycanın mədəni əlaqələrinin genişlənməsində, mədəni irsinin dünyaya çatdırılmasında UNESCO ilə əməkdaşlığın rolu, münasibətlərin inkişaf mərhələləri, Heydər Əliyev Fondunun bu sahədə fəaliyyəti, sivilizasiyalararası və mədəniyyətlərarası dialoq sahəsində Azərbaycanın təşəbbüsləri tədqiq edilmişdir.[8]

H. N. Məmmədovun Azərbaycanın Şərqi Avropa dövlətləri ilə mədəni əlaqələrinə dair apardığı elmi tədqiqatın nəticəsi olaraq ərsəyə gələn avtoreferatında bu münasibətlərin qurulmasında mühüm rol oynayan strukturlardan, o cümlədən UNESCO üzrə Azərbaycan Respublikasının Milli Komissiyası, Heydər Əliyev Fondunun rolundan bəhs edilmişdir. Müəllif Şərqi Avropa dövlətləri ilə mədəni münasibətlərin inkişafında UNESCO-nun rolunu qeyd etmiş, təşkilat çərçivəsində Azərbaycanın görkəmli ədəbiyyat və mədəniyyət xadimlərinin – Məhəmməd Füzulinin, Qara Qarayevin, "Kitabi-Dədə Qorqud"un yubileylərinin keçirildiyini və s. məsələləri araşdırmışdır.[9]

---

6 Nəsirov, E. Heydər Əliyev və Azərbaycanda multikulturalizm siyasəti: varislik, novatorluq: [Elektron resurs] / URL: http://www.xalqqazeti.com/az/ news/politics/ 71215

[7] Əfəndiyeva, N. Azərbaycanlı özünüdərki və özünüidentifikasiyamn kulturoloji-fəlsəfi problemləri qloballaşma kontekstində: / kulturologiya elmləri doktoru dis. avtoreferatı. / – Bakı, ADMlU, 2008. – 48 s.

[8] Fərmanova, A. R. Azərbaycan Respublikasının beynəlxalq əlaqələrində YUNESKO-nun rolu: / siyasi elmlər üzrə fəlsəfə doktoru dis. – Bakı, 2016. – 153 s.

[9] Məmmədov, H. N. Azərbaycan Respublikası ilə Şərqi Avropa ölkələri arasında mədəni əlaqələr (1991-2008-ci illər): / tarix üzrə elmlər doktoru dis. avtoreferatı. / – Bakı, 2013. – 53 s.

Tədqiqatçı S.Əhədova tərəfindən hazırlanmış "Mədəniyyətlərin qarşılıqlı əlaqələrində UNESCO-nun rolu" adlı kitabda UNESCO-nun fəaliyyət istiqamətləri, xüsusilə də beynəlxalq mədəniyyətlərarası dialoqun təmin olunmasında və inkişaf etdirilməsində onun rolu haqqında məlumatlar verilmişdir. UNESCO çərçivəsində həyata keçirilən əməkdaşlıq nəticəsində əldə olunmuş təcrübənin ayrı-ayrı aspektləri təhlil olunur, qlobal mədəniyyətlərarası dialoqun inkişaf etdirilməsində bu təcrübənin təsiri qiymətləndirilir. Həmçinin, Azərbaycan Respublikasının humanitar əlaqələrinin hazırkı vəziyyəti, konkret olaraq, Azərbaycan Respublikası ilə UNESCO arasanıdakı əməkdaşlığın yaranması, istiqamətləri və inkişafı ətrafında da müzakirələr aparılmışdır.

Eyni zamanda tədqiqatçı Sevda Əliyeva "Azərbaycan Respublikası qlobal mədəni proseslərdə" adlı əsərində müasir dövrdə Azərbaycan Respublikasının mədəniyyətlərarası dialoqda iştirakı, dünyada mədəniyyətlərarası əməkdaşlığın inkişafında UNESCO-Azərbaycan əlaqələrinin rolu geniş tədqiq edilmişdir. Əsərdə UNESCO-nun mədəni müxtəlifliyin qorunması və milli mədəniyyətlərə dəstək siyasəti, mədəniyyətlərin dialoqu və milli mədəni müxtəlifliyin qorunması konteksində Azərbaycan – UNESCO münasibətləri ətrafında geniş təhlillər aparılmışdır.[10]

Tədqiqatçı Namiq Abbasovun "Mədəniyyət siyasəti və mənəvi dəyərlər" adlı əsərində Azərbaycan Respublikasının mədəniyyət siyasətinin mahiyyəti, prinsipləri və digər aspektləri ətrafında müzakirələr aparılır. Kitabda ümumi nəzəri yanaşma edilərək mədəniyyət siyasəti anlayışının təbiəti də hərtərəfli izah edilir. Həmçinin, Azərbaycan Respublikasının həyata keçirdiyi mədəniyyət siyasətinin milli-mənəvi dəyərlərin qorunmasında, dünyada tanıdılmasında rolu ilə bağlı da təhlillər aparılır. Azərbaycan Respublikasının beynəlxalq mədəni əlaqələr sistemində rolu da diqqət mərkəzində olmuşdur. Əsəri səciyyəvi əsas cəhətlərdən biri də ondan ibarətdir ki, UNESCO-nun yaranması, mahiyyəti, missiyası, fəaliyyət istiqamətləri və prinsipləri haqqında da geniş məlumat verilir. Azərbaycan-UNESCO əməkdaşlığı haqqında təhlillərin

---

[10] Əliyeva, S.A. Azərbaycan Respublikası qlobal mədəni proseslərdə/ S.A.Əliyeva. – Bakı: Savad, – 2024. – 244 s.

aparılması kitabın müvafiq tədqiqatlar üçün əhəmiyyətini müəyyən edən tərəflərdəndir. Qeyd edək ki, müəllifin digər əsərlərində də mədəniyyət siyasəti, mənəvi dəyərlər və Azərbaycanın xarici siyasətində mənədiyyət amili məsələləri ətrafında geniş təhlillər aparılmışdır[11].

Azərbaycanın SSRİ dövründə beynəlxalq mədəni əlaqələrinin tarixi, bu münasibətlərin xüsusiyyətləri, aparıcı Qərb dövlətləri, eləcə də sosializm düşərgəsinə daxil olan ölkələrlərlə mədəni-humanitar sahələrdə əməkdaşlıq məsələlərinə M.C.Qasımlı diqqəti cəlb etmişdir. M.C.Qasımlının mötəbər arxiv sənədləri əsasında yazılmış əsəri 1946-1990-cı illərdə Azərbaycan SSR-nin beynəlxalq mədəni əlaqələrini tədqiq etmək baxımından əhəmiyyətli olmuşdur.[12]

K.Abdullayev Azərbaycan multikulturalizmi ilə bağlı geniş tədqiqatlar aparmış və bu məsələlər onun coxsaylı əsərlərində və kitablarında yer almışdır. Ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında ölkəmizdə Azərbaycan xalqının multikultural ənənələrinin qorunması və inkişaf etdirilməsi sahəsində həyata keçirilən siyasi istiqamət yeni mərhələdə onun layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən uğurla inkişaf etdirilir. Multikulturalizmi Azərbaycan Respublikasının dövlət siyasəti, xalqımızın həyat tərzi kimi dəyərləndirən Prezident İlham Əliyev bu siyasətin həyata keçirilməsində nüfuzlu beynəlxalq təşkilatlarla əməkdaşlığa xüsusi önəm verir. O, daima ölkəmizin bu təşkilatlar tərəfindən qəbul edilən milli azlıqların hüquq və azadlıqlarının müdafiəsi ilə bağlı konvensiyalara qoşulmasının vacibliyini qeyd edir. Məhz bu siyasi xəttin nəticəsi kimi Azərbaycan Prezidentinin göstərişi ilə ölkəmizin 26 noyabr 2009-cu il tarixli qanunla “Mədəni özünüifadə formalarının müxtəlifliyinin qorunması

[11] Abbasov, N. Mədəniyyət siyasəti və mənəvi dəyərlərin kulturoloji mahiyyəti // – Bakı, Mədəniyyət dünyası, – 2006. VIII buraxılış. – s. 97-104; Yenə onun. Türk dünyasının mədəni inteqrasiyası məsələləri haqqında // – Bakı, Mədəniyyət dünyası, – 2002. IV buraxılış. – s. 146-148; Yenə onun. Estetik mədəniyyət cəmiyyətin ümumi mədəniyyətinin bir hissəsi kimi // – Bakı, Mədəniyyət dünyası, – 2004. VIII buraxılış. – s. 107-109.

[12] Гасымлы, М. Дж. Азербайджан в международных культурных связях (1946-1991 гг.) / М. Дж. Гасымлы. – Тбилиси: изд. Артанучи, – 2005.– 300 с.

və təşviqinə dair" UNESCO Konvensiyasına qoşulmasını göstərmək olar.[13]

E.Nəcəfov Azərbaycanda multikulturalizm siyasətinin ayrı-ayrı aspektləri ilə bağlı dərin tədqiqatlar aparmışdır. Ümumiyyətlə, multikulturalizm mahiyyəti, Azərbaycan multikulturalizm modelinin xüsusiyyətləri, beynəlxalq mədəni əlaqələr və s. məsələlər E. Nəcəfovun əsərlərində yer almışdır.[14]

H.Rəcəblinin BMT-nin ixtisaslaşmış qurumlarından bəhs edilən əsərində UNESCO-nun yaradılması tarixi, missiyası, əsas məqsəd və vəzifələri tədqiq edilmiş, qurumun dünyanın nüfuzlu elm, təhsil və mədəniyyət məsələləri üzrə ixtisaslaşan mühüm hökumətlərarası təşkilatı kimi beynəlxalq münasibətlərdə mövqeyi araşdırılmışdır.[15]

Qeyd olunanlardan başqa, Azərbaycan – UNESCO əməkdaşlığına dair çoxsaylı əsərlər yazılmışdır. Məsələn, kollektiv əməyin məhsulu olan "Azərbaycan – UNESCO: İnsan Hüquqlarına Əsaslanan Tərəfdaşlıq" adlı əsərdə UNESCO-nun fəaliyyətindən bəhs olunur və Azərbaycan – UNESCO əməkdaşlığında insan hüquqları amili ətrafında təhlillər aparılır.[16]

Umumiyyətlə, postsovet məkanında, həmçinin Rusiyada da UNESCO-nun müasir humanitar əlaqələrdə roluna dair çoxsaylı əsərlərə rast gəlmək mümkündür. Təbii ki, xarici ədəbiyyatlarda konkret olaraq, UNESCO – Azərbaycan əlaqələrinə yer verilmədiyi üçün mövzu ümumi konteksdə araşdırılmışdır. Məsələn, rusiyalı tədqiqatçılardan F.Burlatskinin[17], A.Qraçevin[18], İ.İlinskinin[19],

---

[13] Abdullayev, K. Ulu öndər Azərbaycan multikulturalizminin siyasi banisidir // Azərbaycan, – 2014, 23 iyul. – s. 7.

[14] Nəcəfov, E. Azərbaycan Respublikasının multikulturalizm siyasətinin onun xarici siyasətinə təsiri // Strateji təhlil, – 2016, № 1-2 (15-16), – s. 35-42.

[15] Rəcəbli, H. M. BMT-nin ixtisaslaşmış qurumları / H. M. Rəcəbli. – Bakı: Azərbaycan, – 2003. – 256 s.

[16] Azərbaycan – YUNESKO: İnsan Hüquqlarına Əsaslanan Tərəfdaşlıq // – YUNESKO, – 2014. – 287 s.

[17] Бурлацкий, Ф.М. Женева: вчера, сегодня, завтра / Ф.М.Бурлацкий. – Москва: Мысль, – 1986. – 160 с.; Бурлацкий, Ф.М. Вожди и советники. Театральные кино- и телеопыты / Ф.М.Бурлацкий. – Москва: Собрание, – 2008. – 264 с.

V.Lomeykonun, K.Dolqovun[20], T.Zonovanın[21] və başqalarının əsərlərində UNESCO-nun fəaliyyəti, müasir dünyada rolu mədəniyyət fəlsəfəsi bucağından nəzərdən keçirilmişdir.

Təbii ki, Qərb elmində mədəni diplomatiya, UNESCO-nun müasir dünyada rolu və yeri haqqında daha zəngin mənbələr mövcuddur. Qərb tədqiqatçıları siyasi proseslərdə mədəniyyət amilinin rolunu, mədəniyyətlərarası dialoqun mahiyyəti və təsir imkanları, eyni zamanda UNESCO-nun fəaliyyətinin bütün istiqamətlərinin hərtərəfli araşdırılması sahəsində ciddi nəticələr əldə etmişlər. Belə tədqiqatçılardan xüsusi olaraq, J.Nayı[22], J.Kolasanı[23], S.Hantinqtonu[24], L.Harrisonu[25] və başqalarını qeyd etmək lazımdır.

Dissertasiyanın işlənməsində bir sıra mənbələrdən istifadə edilməsi faydalı olmuşdur. Mövzunun tədqiqi ilə bağlı istifadə olunan mənbələri aşağıdakı şəkildə qruplaşdırmaq mümkündür:

1) Rəsmi sənədlər mənbələrin ilk qrupuna aiddir. UNESCO-nun və digər dövlət strukturlarının təhsil, elm və mədəni irslə bağlı olan konvensiyaları, tərəflər arasında imzalanmış münasibətlərin hüquqi-normativ bazasını təşkil edən sənədlər, dövlət başçısının sərəncamları, rəsmilərin çıxış və nitqləri birinci qrup sənədlərə aiddir.

---

[18] Грачев, А.С. Встреча цивилизаций: конфликт или диалог / А.С.Грачев, В.Б.Ломейко. – Париж, – 1996.

[19] Ильинский, И.М. ЮНЕСКО: Учиться жить вместе. Сборник материалов «Болонский процесс: взгляд на проблему» / сост. Новак И.А. – Москва: Московский гуманитарный университет, – 2004.

[20] Долгов, К.М. Философские измерения политики, дипломатии и культуры // – Москва: Научная книга, Культура и современность, – 2007. Том IV.

[21] Зонова, Т.В. Современная модель дипломатии: истоки становления и перспективы развития / Т.В.Зонова. – Москва: РОССПЭН, – 2003. – 456 с.

[22] Joseph, S. Nye. The Powers to Lead: Soft, Hard, and Smart / – New York: Simon and Schuster, – 2008

[23] Kolasa, Jan. International Intellectual Cooperation. The League Experience and the beginning of UNESCO / Jan Kolasa. – Wroclaw, – 1962

[24] Samuel, P. Huntington. Culture Matters: How Values Shape Human Progress. / Samuel P.Huntington. – New York: Basic Books, – 2000

[25] Laurence, E. Hurrison; Mark Leonard, Catherine Stead, Conrad Smewing. Public Diplomacy // – London: The Foreign Policy Centre, – 2002

Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin və dövlət başçısı İlham Əliyevin Azərbaycan – UNESCO münasibətləri ilə bağlı çıxış və nitqlərinin, Azərbaycanla UNESCO arasında münasibətlərin normativ-hüquqi əsaslarının, rəsmilər arasında keçirilən görüşlərin və söylənilən nitq və çıxışların təhlil edilməsində Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin (XİN) tərtib etdiyi "Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi" həm metodoloji həm də mənbə bazası baxımından faydalı olmuşdur. [26] Eyni zamanda dövlət rəsmilərinin çıxış və nitqləri Ümummilli lider Heydər Əliyevin çıxış, nitq və görüşlərinin toplandığı "Müstəqilliyimiz əbədidir" kitabında öz əksini tapmışdır.[27]

Dövlət başçısı İlham Əliyevin UNESCO nümayəndə heyəti ilə görüşəri, bəyanatları "İnkişaf – məqsədimizdir" çoxcildiyində öz əksini tapmışdır.[28] Kitab münasibətlərin təhlili və ilkin mənbə baxımından faydalı olmuşdur.

Heydər Əliyev Fondunun UNESCO – Azərbaycan münasibətlərinin inkişafı sahəsində fəaliyyəti, Mehriban Əliyevanın təhsil, mədəniyyət, incəsənət sahəsində təşkilatla əməkdaşlığı, keçirdiyi rəsmi görüşlər və tədbirlərin əks olunduğu "Mehriban Əliyeva: tərəqqi və yüksəliş yolları ilə" kitabı tədqiqatın aparılmasında əhəmiyyətli olmuşdur[29]

2) Problemin araşdırılmasında Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin və Azərbaycan Respublikası Dövlət Arxivinin sənədləri faydalı olmuşdur. Bu sənədlər tərəflər arasında qarşılıqlı yazışmaların, təhsil, mədəni münasibətlərin öyrənilməsi baxımından faydalı olmuşdur.

3) Mənbələrin digər qrupunu mövzu ilə bağlı dərc olunan qəzet, jurnallar və elektron informasiya resursları təşkil edir. 2017-ci

---

[26] Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2004 I hissə / AR XİN, Bakı: GARİSMA MMC, – 2009. – 816 s.; 2008 I hissə / AR XİN, Bakı: GARİSMA MMC, – 2009. – 656 s.

[27] Əliyev, H. Ə. Müstəqilliyimiz əbədidir: [46 clddə] / H. Əliyev. – Bakı: Azərnəşr, – c. 12. – 2004. – 432 s.; c. 8. – 1998. – 488 s.

[28] Əliyev, İ. H. İnkişaf – məqsədimizdir: [138 clddə] / İ. Əliyev. – Bakı: Azərnəşr, – c. 42. – 2017. – 400 s.; c. 109. – 2021. – 392 s.

[29] Mehriban Əliyeva: tərəqqi və yüksəliş yolları ilə: [2 clddə] / elmi red. A. Naxçıvanlı. – Bakı: c. 2. – 2014. – 388 s.

ildə İRS jurnalının Azərbaycanın UNESCO-ya üzv olmasının 25 illiyinə həsr edilmiş xüsusi buraxılışı dərc edilmişdir. Jurnalda Azərbaycan – UNESCO münasibətlərinin müxtəlif aspektlərini əhatə edən məlumatlar yer almışdır. Jurnalda xarici dildə Azərbaycanın zəngin maddi-mədəniyyət nümunələri olan "Qobustan qayaüstü rəsmləri", "İçəri şəhər" tarixi abidəsi, müxtəlif sənətkarlıq bölgələri, musiqi sənəti, Novruz adətləri və s. öz əksini tapmışdır.[30]

Mövzunun tədqiqində "Azərbaycan", "Xalq qəzeti" və "Respublika" qəzetlərində dərc olunan materiallar faydalı olmuşdur.

Dissertasiyanın yazılmasında elektron informasiya resurslarından istifadə edilmişdir. Birləşmiş Millətlər Təşkilatı (BMT), UNESCO, UNESCO üzrə Azərbaycan Respublikasının Milli Komissiyasının, Azərbaycan Respublikası Prezidentinin, Heydər Əliyev Fondunun, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin, Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Aktların Dövlət Reyestri İdarəsinin rəsmi saytlarının elektron informasiya resursları münasibətlərin müxtəlif aspektlərinin, normativ-hüquqi sənədlərin tədqiq edilməsində əhəmiyyətli olmuşdur.

**Tədqiqatın obyekti və predmeti.** Dövlət müstəqilliyinin bərpa edilməsindən muasir mərhələyədək Azərbaycan ilə UNESCO arasında formalaşmış əməkdaşlıq münasibətləri tədqiqatın obyektini təşkil edir. Azərbaycan – UNESCO əməkdaşlığının prinsipləri, istiqamətləri və bu əlaqələrin həyata keçirilməsinin xüsusiyyətləri, üsul və vasitələri tədqiqatın predmetidir.

**Tədqiqatın məqsəd və vəzifələri**. Tədqiqatın əsas məqsədi Azərbaycan – UNESCO əməkdaşlığını hərtərəfli tədqiq etməkdən və bu əməkdaşlığın səmərəliliyini şərtləndirən amilləri müəyyənləşdirməkdən ibarətdir. Qarşıya qoyulan məqsədə müvafiq olaraq aşağıdakı vəzifələr yerinə yetirilmişdir:

- UNESCO-nun yaradılmasını şərtləndirən amilləri və təşkilatın missiyasının vacibliyini əsaslandırmaq, əsas fəaliyyət istiqamətləri ətrafında daha dərindən təhlillər aparmaq;

[30] Azərbaycanın UNESCO-ya üzv olmasının 25 illiyinə həsr edilmiş İRS jurnalının xüsusi buraxılışı: [Elektron resurs] / URL: https://www.unesco.az/storage/documents/Heritage_ENG_FR_2016.pdf

- UNESCO-nun xarici mədəni siyasətin həyata keçirilməsi vasitəsi kimi əhəmiyyətinin müəyyənləşdirilməsi;

- Azərbaycanın humanitar xarici siyasətinin əsas prinsiplərinin, prioritetlərinin təhlil olunması və iştirakçılarının xüsusiyyətlərinin tədqiq edilməsi;

- Azərbaycan humanitar siyasətində UNESCO-nun yerinin müəyyənləşdirilməsi;

- Azərbaycanla UNESCO arasında münasibətlərin qurulması və inkişaf mərhələləri ətrafında təhlillər aparmaq;

- Elm, təhsil və mədəniyyət və mədəni irsin qorunması sahələrində Azərbaycan – UNESCO əməkdaşlığının mövcud vəziyyətini müəyyənləşdirmək;

- Azərbaycan – UNESCO əməkdaşlığında Heydər Əliyev Fondunun yerinin və rolunun əsaslandırılması;

- İkinci Qarabağ müharibəsindən sonra Azərbaycan – UNESCO münasibətlərində baş verən problemlərin səbəblərini araşdırmaq.

**Tədqiqat metodları.** Dissertasiyanın metodoloji əsasını tədqiqata cəlb olunmuş mənbə və ədəbiyyatlardakı fakt və materialların təhlili təşkil edir. Tədqiqat zamanı tarixi təhlil, siyasi təhlil metodlarından müqayisəli təhlil, sistemli yanaşma, analiz, kontent təhlil, institusional təhlil və ümumiləşdirmə metodlarından istifadə olunmuşdur.

Mövzuya sistemli yanaşmanı təmin etmək üçün müxtəlif elmi metodlardan istifadə edilmişdir. Azərbaycan – UNESCO münasibətlərinin mərhələləri və mədəni-humanitar sahələrdə inkişaf dinamikasının araşdırılmasında tarixi təhlil metodu səmərəli olmuşdur. Müqayisəli təhlil metodundan istifadə edərək Azərbaycanın mövqeyi beynəlxalq təşkilatların təcrübəsi ilə qarşılaşdırılmış, İkinci Qarabağ müharibəsindən sonrakı dövrdə mədəni irsin bərpasına yanaşmalar qiymətləndirilmişdir.

UNESCO-nun rəsmi hesabatları, Azərbaycanın dövlət sənədləri və tərəflər arasında imzalanmış müqavilə və sazişlərin öyrənilməsində sənəd təhlili metodundan istifadə olunmuşdur. Eyni zamanda deskriptiv və analitik metodlardan istifadə edilməklə, abidələrin dağıdılması və ya saxtalaşdırılmasına dair faktlar

ümumiləşdirilmişdir. Tədqiqat işində kontent təhlil metodu əsasında dövlət başçılarının və digər rəsmi şəxslərin nitq və çıxışları təhlil edilmişdir. Bu metod əsasında Azərbaycanın xarici siyasətinin əsas istiqamətləri və beynəlxalq münasibətlərdə mövqeyi tədqiq edilmişdir. İnstitusional təhlil metodundan istifadə edilməklə BMT-nin, UNESCO-nun qərar və sənədlərinin dövlətin siyasətinə təsiri araşdırılmışdır. Tədqiqat prosesində toplanmış materialların sistemləşdirilməsi və yekun nəticələrin əldə edilməsi üçün ümumiləşdirmə metodundan istifadə olunmuşdur.

**Müdafiəyə çıxarılan əsas müddəalar**:

1. Azərbaycanla UNESCO arasında təşkilatın əsas fəaliyyət istiqamətləri üzrə-elm, təhsil və mədəniyyət sahəsində səmərəli əməkdaşlıq sistemi qurulmuşdur. Lakin UNESCO-nun elm və təhsil sahəsində bəzi təklifləri ümumi prinsiplərə əsaslandığından, onların Azərbaycanın təhsil sisteminə tətbiqində müəyyən çətinliklər yaranmışdır.

2. Azərbaycan Respublikası UNESCO ilə əməkdaşlığını davamlı olaraq genişləndirməklə, mədəniyyətlərarası dialoqun vacibliyinin təşviqi istiqamətində ciddi fəallıq nümayiş etdirir.

3. UNESCO-nun mədəni-humanitar sahədə fəaliyyəti humanitar xarakterli olsa da, siyasi missiyanın həyata keçirilməsi üçün səmərəli mexanizm kimi çıxış edir.

4. Azərbaycan Respublikasının humanitar əlaqələrinin yaradılmasında və inkişaf etdirilməsində Heydər Əliyev Fondunun olduqca təsirli rolu vardır.

5. UNESCO – Azərbaycan əməkdaşlığı hər şeydən öncə, həm də Azərbaycanın milli mədəni irsinin özününküləşdirilməsinin qarşısının alınması baxımından strateji əhəmiyyət kəsb edir.

6. İkinci Qarabağ müharibəsindən sonra, UNESCO ilə əməkdaşlıqda, Azərbaycan tərəfinin təqdim etdiyi faktlar əsasında dağıdılmış, özününküləşdirilmiş və saxtlaşdırılmış mədəni irs nümunələrinin obyektiv qiymətləndirilməsi və monitorinqi mexanizmlərinin gücləndirilməsi problemi ortaya çıxmışdır.

7. Azərbaycan UNESCO ilə əməkdaşlıqda ikili standartlardan, islamofobiyadan, ayrı-seçkilikdən azad olan münasibətlərə üstünlük verir.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiyanın elmi yeniliyi Azərbaycan – UNESCO əməkdaşlığının siyasi, mədəni, humanitar aspektlərinin kompleks araşdırılmasından irəli gələn bir sıra müddəalarda öz əksini tapmışdır:

- Mötəbər mənbə və ədəbiyyatların toplanması, sistemləşdirilməsi və təhlil edilməsi ilə Azərbaycan siyasətşünaslığında ilk dəfə olaraq, dövlət müstəqilliyinin bərpa edilməsindən 2023-2024-cü illərədək olan xronoloji çərçivədə Azərbaycan – UNESCO münasibətləri kompleks şəkildə tədqiq edilmişdir;
- UNESCO-nun müasir beynəlxalq münasibətlərdə rolu, fəaliyyət istiqamətləri, dövlətlərlə əməkdaşlıqda əhəmiyyət verdiyi prinsiplər, xarici siyasət vasitəsi kimi rolu araşdırılmış və nəticəyə gəlinmişdir ki, UNESCO-nun yumşaq güc tətbiq etmə potensialı Azərbaycan üçün vacibdir. Azərbaycan Respublikası özünün milli maraqlarının təmin edilməsi məqsədi ilə təsir imkanlarını məhz bu potensial əsasında formalaşdıra bilər;
- UNESCO-nun missiyası araşdırılmış və təşkilatın əslində humanitar istiqamətdən daha çox siyasi missiyanı öz üzərində daşıması qənaətinə gəlinmişdir. Bu zaman təşkilat sadəcə olaraq, mədəni-humanitar xarakterli amillərdən bir mexanizm kimi istifadə edir;
- Mədəniyyətlərarası dialoqda UNESCO-nun rolu məsələsinin tədqiqi göstərir ki, qloballaşma prosesi mədəni dialoq imkanlarını əhəmiyyətli dərəcədə genişləndirsə də, milli mədəni identikliyin saxlanılması məsələsini çətinləşdirir;
- Dissertasiya işində UNESCO – Azərbaycan münasibətlərinin müqavilə-hüquq bazası araşdırılmış, imzalanan sənədlərin əməkdaşlığın dərinləşdirilməsində mühüm əsas olduğu göstərilmişdir;
- Azərbaycan – UNESCO əməkdaşlığının yalnız milli mədəni irsin qorunması baxımından deyil, həm də dövlətin beynəlxalq aləmdə siyasi mövqeyinin möhkəmlənməsinə şərait yaratması isbat edilmişdir;
- Heydər Əliyev Fondunun UNESCO-nun prioritetlərinin beynəlxalq səviyyədə həyata keçirilməsində ən yaxından iştirak edən

qeyri-hökumət təşkilatı olması sübuta yetirilmiş, UNESCO ilə əməkdaşlıqda mədəni irsin qorunması, təhsil layihələrinin təşviqi, beynəlxalq humanitar təşəbbüslərdə təsiri elmi əsaslarla tədqiq edilmişdir.

- Azərbaycanla UNESCO arasında təhsil sahəsində əməkdaşlığın tədqiqi göstərir ki, təşkilatın irəli sürdüyü bəzi təkliflər universal xarakter daşıdığından onların milli təhsil sisteminə tətbiqi prosesində uyğunlaşdırma, maliyyə və institusional çətinliklər meydana çıxmışdır;

- Dissertasiya işində, ilk dəfə olaraq İkinci Qarabağ müharibəsindən sonra Azərbaycan – UNESCO münasibətlərində ortaya çıxan yeni meyillər, Ermənistanın işğalı dövründə Azərbaycanın Qarabağ bölgəsinin maddi-mədəniyyət abidələrinin dağıdılması və saxtalaşdırılmasına UNESCO-nun adekvat münasibət göstərməməsi, mədəni irsin qorunması sahəsində Azərbaycanın həyata keçirdiyi praktik addımlar və UNESCO-dan dəstək almaması, bu istiqamətdə təşkilatın ayrı-seçkilik siyasəti və ikili standartlardan çıxış etməsi məsələləri tədqiq edilmişdir. UNESCO-nun obyektivlik prinsiplərinin pozulması, bunun əməkdaşlığın perspektivlərinə təsiri yeni yanaşma ilə qiymətləndirilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** İşin nəticələrindən mədəni-humanitar siyasətin mahiyyəti, əlamətləri, həyata keçirilməsi prinsipləri, eyni zamanda, Azərbaycan – UNESCO əməkdaşlığının vəziyyəti və perspektivləri haqqında təsəvvürləri formalaşdırmaq üçün istifadə etmək olar. Bundan başqa, oxşar problemlər ətrafında elmi-tədqiqat işləri aparan zaman da dissertasiyadan nəzəri mənbə kimi faydalanmaq mümkündür.

Tədqiqat işinin praktiki əhəmiyyəti ondan ibarətdir ki, mədəni müxtəlifliyin, multikultural dəyərlərin qorunması, humanitar xarici siyasətin səmərəliliyinin artırılması üçün fəaliyyət strategiyasını formalaşdıran zaman əldə olunmuş nəticələrə istinad oluna bilər. Bundan başqa, tədqiqatın əsas müddəalarını tədrisdə, yeni tədqiqatlarda istifadə etmək olar.

**Aprobasiyası və tətbiqi.** Dissertasiyada irəli sürülən əsas elmi müddəalar və nəticələr müəllifin Ali Attestasiya Komissiyası tərəfindən tövsiyə olunan Azərbaycanda və xaricdə çap etdirdiyi elmi

məqalələrdə, müxtəlif elmi-təcrübi konfranslardakı məruzələrində öz əksini tapmışdır.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Bakı Slavyan Universitetinin Beynəlxalq münasibətlər kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya işi Giriş (27639 işarə), I fəsil (59477 işarə), II fəsil (115214 işarə), III fəsil – (72238 işarə) və nəticə (12388 işarə) hissələrindən ibarət olmaqla, ümumilikdə 286.956 işarədən ibarətdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Dissertasiya işinin girişində mövzunun aktuallığı ayrı-ayrı bəndlər üzrə əsaslandırılmış, dissertasiya mövzusuna aid mövcud ədəbiyyata münasibət bildirilərək işlənmə dərəcəsi təhlil edilmişdir. Girişdə həmçinin, tədqiqatın məqsəd və vəzifələri müəyyənləşdirilmiş, elmi yeniliyi, nəzəri-metodoloji əsasları, nəzəri-praktiki əhəmiyyəti, aprobasiyası göstərilmişdir.

Dissertasiyanın birinci fəsli "**Müasir beynəlxalq mədəni-humanitar əlaqələr sistemində UNESCO-nun yeri və rolu" adlanır.** Bu fəslin **"UNESCO-nun yaradılması amilləri və missiyası"** adlanan birinci paraqrafında təşkilatın yaradılmasını zəruri edən amillərdən bəhs olunur. Qeyd olunur ki, 1942-ci ildə İkinci Dünya müharibəsi illərində Avropa ölkələrinin təhsil nazirlərinin konfransı keçirilmişdir. Həmin dövrdə sülhün yaranacağı halda təhsil sisteminin bərpa olunması diqqət mərkəzində idi. Qısa zaman ərzində layihə ümumdünya əhəmiyyət kəsb etməyə başlamışdır. Bir sıra dövlətlərin, həmçinin, ABŞ-ın bu konfransda iştirak etmək arzusu onu göstərirdi ki, sülhün və təhlükəsizliyin əsas təminatçısı rolunda məhz elm, təhsil, mədəniyyət amili çıxış edir. Bunu sübut edən məqamlardan biri də o olmuşdur ki, 1945-ci ilin noyabrında, müharibənin sona çatmasının ilk ilində Londonda təhsil və mədəniyyət təşkilatının yaradılması haqqında konfrans keçirilmişdir. Konfransın işində dünyanın 44 ölkəsi iştirak etmişdir. İştirak edən nümayəndələr dünya mədəniyyətini bərpa edəcək bir

təşkilatın yaradılması ideyasını yekdilliklə dəstəklədilər. Yeni yaradılacaq təşkilat bəşəriyyətin intellektual və mənəvi həmrəyliyini təmin etməli idi. Bu zaman əsas hədəflərdən biri isə, yeni müharibənin qarşısının alınmasından ibarət idi.[31] Beləliklə, tədqiqata əsasən, qənaətə gəlmək olar ki, yalnız siyasi və iqtisadi razılaşmalar xalqların əsl tələbatlarının ödənilməsi və prioritetlərinin həyata keçirilməsi üçün kifayət etmir. Etibarlı sülh, dialoq və qarşılıqlı anlaşma əsasında əldə oluna bilər. Bu baxımdan intellektual və mənəvi bəşəri həmrəylik olduqca təsirli rola malikdir. Təsadüfi deyildir ki, UNESCO bu kontekstdə vətəndaşların gələcəyinin qurulmasının elm və təhsil alətlərinin formalaşdırılması məsələsinə diqqət yetirmişdir.

Hər şeydən öncə, UNESCO hər bir uşağın, hər bir vətəndaşın keyfiyyətli təhsilə çıxış imkanının olmasının qayğısına qalır. Tədqiqatlar nəticəsində müəyyənləşdirilən məqamlardan biri də UNESCO-nun mədəniyyətlərin bərabərliyinin təmin olunması taktikasıdır. Qarşılıqlı anlaşma, dialoq, gələcək münaqişələrin və ziddiyyətlərin qarşısının alınmasının ən səmərəli üsullarından biri kimi qiymətləndirilir. İkinci Dünya müharibəsindən sonra belə ideyaların dəstəklənməsi zərurət kimi meydana çıxmışdır.

Birinci fəslin **"UNESCO-nun əsas fəaliyyət istiqamətləri və prinsipləri"** adlanan ikinci paraqrafında təşkilatın fəaliyyətinin ayrı-ayrı istiqamət və prinsipləri təhlil olunmuşdur. UNESCO BMT sistemində ən böyük ixtisaslaşmış təsisatdır. Bu da onu göstərir ki, dünya mədəni irsinin qorunması, elm və təhsil sahəsində inteqrasiya, beynəlxalq sülhün və təhlükəsizliyin təmin olunmasının ən optimal yolu UNESCO çərçivəsində əməkdaşlıqdır. Təşkilatın başlıca məqsədi BMT və öz nizamnaməsində yer almış prinsiplər əsasında beynəlxalq əməkdaşlığı həyata keçirməkdən ibarətdir. BMT üçün beynəlxalq əməkdaşlıq təhlükəsizlik sahəsinə aiddirsə, UNESCO üçün təhsil, sosial və təbii elmlər, mədəniyyət və informasiya sahələrinə aiddir. Özünün çoxistiqamətli fəaliyyətində UNESCO ideoloji, siyasi, etnik, dini müxtəliflikləri nəzərə almadan şəxsiyyətin və xalqların hüquq azadlıqlarını qorumaqla məşğul olur. Onun bütün

---

[31] UNESCO's History: [Electronic resource] / URL: https://www.unesco.org/en/brief

humanitar və təhsil fəaliyyəti məhz bu istiqamətə yönəldilmişdir. UNESCO Nizamnaməsinin əsas ideyası insanların şüurunda sülh ideyalarını formalaşdırmaqdan ibarətdir. Sürətlə cərəyan edən dəyişiklikləri nəzərə alaraq, UNESCO sülh ideyalarının həyata keçirilməsində iştirakın yeni formalarını işləyib hazırlayır. Tərəfdaşların yeni iştirak formaları dünya mədəniyyəti və demokratiya konsepsiyaları ilə tamamlanır. Təşkilatın fəaliyyət prinsipləri ilə şüarı da yaxından uzlaşır. Belə ki, UNESCO-nun başlıca şüarı "qlobal düşünmək, lokal fəaliyyət göstərmək"dən ibarətdir[32].

Savadsızlığın aradan qaldırılması, dəqiq və humanitar elmlərin inkişafı, insan hüquqlarının, mədəni irsin, ümumbəşəri dəyərlərin, ekoloji mühitin qorunması UNESCO-nun əsas fəaliyyət sferasına daxildir.

Birinci fəslin üçüncü paraqrafı **"UNESCO xarici mədəni siyasətin həyata keçirilməsi vasitəsi kimi"** adlanır. Bu paraqrafda əsaslandırılmışdır ki, müasir informasiya cəmiyyətində mədəniyyət demək olar ki, bütün sahələrdə, həmçinin, iqtisadi sahədə müəyyənləşdirici amil rolunda çıxış etməkdədir. Bu baxımdan, mədəniyyətin dəstəkdən məhrum edilməsi yaxın və uzaq gələcəkdə bir sıra ciddi problemlərin meydana çıxmasını şərtləndirə bilər.[33]

Tədqiqatdan aydın olur ki, müasir qloballaşan dünyada mədəniyyətin və mədəni irsin qorunması istiqamətində fəaliyyətin koordinatoru və beynəlxalq tənzimləyicisi rolunda UNESCO-nun əhəmiyyəti davamlı olaraq artmaqdadır.

UNESCO-nun regional siyasətinin prioritetləri vətəndaşların və təşkilatların mədəni qorunmasında yaxından iştirakını şərtləndirən proqramların işlənib hazırlanması və həyata keçirilməsindən ibarətdir. İrs sahəsində ümumi mədəni siyasətin mühüm bir hissəsi kimi xüsusi siyasətin həyata keçirilməsi məsələsi də öz aktuallığı ilə seçilir. UNESCO-nun ümumdünya irs siyahısının yaradılmasında məqsəd dünyanın əhəmiyyətli təbii və mədəni irs nümunələrinin

---

[32] ЮНЕСКО. Цели, структура, деятельность. Хроника, факты, цифры // – Москва, – 2002. – с. 22.

[33] Лихачев Д.С. Экология культуры // – Ленинград, Избранные работы, – 1987. Т. 3. Л. – с. 3.

müəyyən edilməsi, mühafizəsi və təşviqi, bu sahədə beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsidir. Təşkilat üzv dövlətlərin xarici siyasətinin həyata keçirilməsində strateji vasitə roluna malikdir. UNESCO-nun layihə və proqramları, təşəbbüsləri üzv dövlətlərin diplomatik mövqeyinin güclənməsinə, çoxtərəfli əməkdaşlıq platformalarında iştirakına şərait yaradır.

Dissertasiyanın ikinci fəsli **"Azərbaycan Respublikasının xarici siyasətində mədəni-humanitar istiqamətlər və UNESCO"** adlanır. Bu fəslin **"Azərbaycanın humanitar xarici siyasəti və UNESCO: prinsip və prioritetlər**" adlanan yarımfəslində göstərilmişdir ki, Azərbaycanın xarici humanitar siyasətində UNESCO ilə münasibətlərin qurulması və inkişafı bir sıra vacib amillərlə bağlıdır. Bu amillərin içərisində ən önəmlisi sürətlə qloballaşan dünyada UNESCO-nun rolu və missiyasının əhəmiyyətli dərəcədə artmasıdır. Azərbaycan, UNESCO ilə əməkdaşlığa həm də mədəni hüquqların qorunması sahəsində daha səmərəli vasitələrindən biri kimi yanaşır.

Azərbaycan – UNESCO münasibətləri eyni zamanda beynəlxalq hüquq prinsiplərinə əsaslanır. Azərbaycan Respublikası müstəqilliyin ilk illərindən başlayaraq, beynəlxalq təşkilatlarla sıx əlaqələrdə milli, eyni zamanda bəşəri maraqlarının qorunmasını prioritet hesab etmişdir. [34]

UNESCO ilə əməkdaşlığın inkişaf etdirilməsində Azərbaycanın dünya xalqlarının mədəni dəyərlərinə tolerant yanaşması dayanır. Elm, təhsil və mədəniyyət sahəsində uğurlu münasibətlər digər istiqamətlərdə də konstruktiv əməkdaşlığın qurulmasına imkan verir. Azərbaycan Respublikası UNESCO çərçivəsində xristian və islam dinləri arasında dialoqun gücləndirilməsində təsirli rol oynamışdır. Türk xalqlarının təşkilat çərçivəsində əməkdaşlığının genişləndirilməsinin davamlı xarakter almasında Azərbaycanın yaxından rolu olmuşdur. Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı ilə UNESCO arasında əlaqələrin qurulmasında

[34] Dünyada milli-mədəni müxtəlifliyin qorunması kontekstində: Azərbaycan-UNESCO əlaqələri // BMT BM 57-ci sessiyası. A/57/249 saylı qətnamə, 20 dekabr 2002-ci il: [Elektron resurs] / URL: https ://mehribanaliyeva.preslib. az/media-54d418f4ef.html

və inkişaf etdirilməsində Azərbaycan Respublikasının rolunu ayrıca qeyd etmək lazımdır.[35] Azərbaycan Respublikası BMT, Sivilizasiyalar Alyansı, UNESCO, İSESCO, ATƏT, Avropa Şurası, MDB və digər beynəlxalq qurumlar çərçivəsində mədəni-humanitar əməkdaşlığın inkişaf etdirilməsinə böyük töhfə verməkdədir.

İkinci fəslin **"Azərbaycanla UNESCO arasında münasibətlərin qurulması və inkişaf mərhələləri"** adlanan ikinci paraqrafında göstərilmişdir ki, Azərbaycan Respublikası qlobal mədəniyyətlərarası dialoqun inkişaf etdirilməsi prosesində yaxından iştirak etməklə yanaşı, əksər hallarda həm də təşəbbüskar rolunda çıxış edir. Bütün bunların fonunda mədəni əlaqələrin genişləndirilməsi, müvafiq istiqamətlərdə beynəlxalq təşkilatlar çərçivəsində çoxistiqamətli fəaliyyətin başlıca hərəkətverici elementi rolunda məhz milli mədəniyyətin qorunması çıxış edir. Milli mədəniyyətin qorunması Azərbaycan Respublikasının dövlət siyasətinin mühüm istiqamətini təşkil edir.

Azərbaycan Respublikası mədəniyyət siyasətində mövcud qabaqcıl beynəlxalq təcrübəni nəzərə alır. Məhz belə təcrübənin də mənimsənilməsi üçün UNESCO kimi ixtisaslaşmış bir təşkilat çərçivəsində əməkdaşlıq etmək zəruridir.[36]

UNESCO ilə Azərbaycan Respublikası arasında əməkdaşlıq 1992-ci ildə başlamışdır. 1992-ci il iyulun 3-də Azərbaycan Respublikası UNESCO-ya üzv qəbul olunmuşdur. Bununla da Azərbaycan Respublikası beynəlxalq mədəni əməkdaşlıq sistemində iştirak etməyə başlamışdır. UNESCO ilə əməkdaşlıq milli komissiyanın yaradılmasını nəzərdə tuturdu. Əsas məqsəd elm, təhsil və mədəniyyət sahələrində fəaliyyət göstərən milli strukturlarla təşkilatın fəaliyyətini əlaqələndirməkdən ibarət idi. Milli komissiyanın yaradılması həm də üzv dövlətin UNESCO ilə konstruktiv və səmərəli əməkdaşlıq niyyətinin real göstəricisi idi. Buna görə də, Ulu Öndər Heydər Əliyev 1994-cü ilin fevral ayında

---

[35] Тюркоязычные страны действуют сообща в рамках ЮНЕСКО: [Электронный ресурс] / URL: https://yenicag.ru/tyurkoyazychnye-strany-deystvuyut-soobshh/302699/

[36] Azərbaycanda yeni mədəniyyət siyasətinin formalaşdınlmasına yardım. "Simurq" Azərbaycan mədəniyyət Assosiasiyası // – Bakı: Sabah, – 2001. – s. 24

Azərbaycan Respublikasının XİN-nin nəzdində Milli Komissiyanın yaradılması haqqında Sərəncam imzalamışdır.[37]

Tədqiqat göstərir ki, Azərbaycan Respublikası UNESCO ilə əməkdaşlıq sayəsində beynəlxalq intellektual və humanist əməkdaşlıq sisteminin ən etibarlı, fəal elementlərindən birinə çevrilmişdir.

Azərbaycan, maddi-mədəni irsin qorunması və tanıdılması istiqamətində UNESCO ilə əməkdaşlığa üstünlük verir. Belə ki, Qobustan, İçəri şəhər tarixi qoruqları təşkilatın Ümumdünya maddi-mədəni irs siyahısına daxil edilmişdir. 2019-cu ilin iyulunda UNESCO-nun Ümumdünya İrs Komitəsinin Bakıda keçirilən 43-cü sessiyasında Şəki şəhərinin tarixi hissəsinin və Şəki Xan Sarayının UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilməsi haqqında qərar qəbul edilmişdir.[38]

Azərbaycan Respublikası ilə UNESCO arasında əməkdaşlıqda siyasi xarakterli məqamlara da diqqət yetirilir. Məsələn, Qarabağ at oyunu olan "Çovqan"ın UNESCO-nun Ümumdünya Qeyri-maddi Mədəni İrs siyahısına daxil edilməsi Azərbaycanın xarici siyasət fəaliyyətinin uğuru olmaqla yanaşı, həm də özündə böyük siyasi məna daşıyırdı. Belə qənaətə gəlmək olar ki, Azərbaycan – UNESCO münasibətləri humanitar sahə ilə yanaşı, siyasi, strateji istiqamətlərdə davamlı xarakter daşıyırdı.

Dissertasiya işinin ikinci fəslinin üçüncü paraqrafı **"Heydər Əliyev Fondunun Azərbaycan – UNESCO əməkdaşlığında yeri və rolu"** adlanır. Bu paraqrafda əsaslandırılır ki, Heydər Əliyev Fondu milli mədəniyyətin tanıdılması məqsədilə həm ölkə daxilində, həm də xaricdə müxtəlif seminarlar və konfranslar təşkil etmişdir. Belə tədbirlər çərçivəsində mədəniyyətlərarası dialoqun təbliğinə geniş yer verilmişdir. Məsələn, Qəbələ Beynəlxalq Musiqi festivalı Heydər Əliyev Fondu tərəfindən mədəniyyətlərarası dialoqun inkişaf etdirilməsi, Azərbaycan musiqisinin təbliği ilə yanaşı, həm də dünya

---

[37] YUNESKO üzrə Azərbaycan Respublikasının Milli Komissiyası ilə bağlı əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı: [Elektron resurs] / 15 sentyabr 2005-ci il. URL: https://e-qanun.az/framework/10729.

[38] UNESCO ilə əməkdaşlıq Azərbaycanın xarici siyasətində əsas istiqamətlərdən birini təşkil edir // Azərbaycan. – 2017, 26 dekabr. – № 286. – s. 12.

musiqi mədəniyyətləri arasında inteqrasiyanın təmin olunması baxımından uğurlu addımlardan idi.

Azərbaycanın beynəlxalq səviyyədə daha dərindən tanıdılması istiqamətində də xüsusi layihələr Heydər Əliyev Fondu tərəfindən həyata keçirilmişdir. Bu baxımdan, "Bakıya uçuş. Müasir Azərbaycan incəsənəti" layihəsini xüsusi qeyd etmək lazımdır. Dünyanın müxtəlif ölkələrinin paytaxtlarında təşkil olunan bu sərgi Azərbaycan və onun mədəni dəyərləri haqqında beynəlxalq təsəvvürlərin genişləndirilməsində çox təsirli rol oynamışdır.[39] Heydər Əliyev Fondu UNESCO ilə yaxından əməkdaşlıq çərçivəsində milli mədəniyyət abidələri ilə yanaşı, dünya xalqlarının mədəni irsinin mühafizəsi istiqamətində də kompleks tədbirlər həyata keçirmişdir.

Heydər Əliyev Fondu ilə UNESCO arasında münasibətlərin müqavilə-hüquq bazası, əlaqələrin normativ əsası kifayət qədər zəngin olmuşdur. 2007-ci il iyunun 18-də UNESCO, Azərbaycan Hökuməti və Heydər Əliyev Fondu arasında Azərbaycanda peşə təhsilinin inkişafına dair layihənin icra edilməsi haqqında sazişin imzalanmasından sonra əməkdaşlığın inkişafında yeni meyillər formalaşmışdır. 2009-cu il martın 19-da isə Heydər Əliyev Fondu ilə UNESCO arasında qeyri-maddi mədəni irsin qorunması üzrə strateji hədəflərə nail olmaq haqqında saziş imzalanmışdır.[40]

Heydər Əliyev Fondu Azərbaycanın elm və təhsil sahələrinin inkişaf etdirilməsində, dünya elm-təhsil sisteminə inteqrasiya olunmasında davamlı layihələr həyata keçirmişdir. Bu baxımdan, Heydər Əliyev Fondunun "Təhsilə dəstək" layihəsi xüsusi əhəmiyyətə malikdir.[41]

Heydər Əliyev Fondu mədəniyyət, dünya mədəni irsinin, o cümlədən mühüm xristian abidələrinin təmir-bərpasına, qorunub

---

[39] Əliyeva Mehriban: [Elektron resurs] / URL: http://mehribanaliyeva.preslib.az/media-3ad6877454.html

[40] UNESCO-nun Xoşməramlı Səfiri xanım Mehriban Əliyevanın fəaliyyəti (2004-2022): [Elektron resurs] / URL: https://unesco.az/az/pages/unesco-goodwill-ambassador-mehriban-aliyeva

[41] Əliyeva, Y. Heydər Əliyev fondu – milli-mədəni irsimizin hamisi / Səs, – 2009, 9 may. – s. 6-7.

saxlanmasına maliyyə dəstəyi göstərmiş, bu sahədə layihələr həyata keçirmişdir. Fond İkinci Qarabağ müharibəsindən sonra bölgənin maddi-mədəni irsinin bərpasına öz töhfəsini verməkdədir.

Dissertasiyanın üçüncü fəsli "**UNESCO – Azərbaycan əməkdaşlığının başlıca sahələri: elm, təhsil, mədəniyyət və mədəni irs**" adlanır. Bu fəslin **"Elm, təhsil sahəsində əməkdaşlıq**" adlanan birinci paraqrafında göstərilmişdir ki, elm, təhsil sahələrində Azərbaycanla UNESCO arasında əməkdaşlıq özünün davamlı inkişafı ilə seçilmişdir. Azərbaycan tərəfi UNESCO Nizamnaməsinin 7-ci maddəsinin tələbinə uyğun olaraq, özünün Milli Komissiyasını yaratmışdır. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi nəzdində fəaliyyət göstərən Milli Komissiya elm, təhsil və mədəniyyət sahələrində fəaliyyət göstərən qutumlarla UNESCO arasında əlaqələri koordinasiya etməklə, əməkdaşlığın səmərəliliyini təmin edir. Azərbaycan Respublikası öz tərəfindən Milli Komissiyanın strukturunun təkmilləşdirilməsi, fəaliyyətinin səmərəliliyinin artırılması məsələsini daim diqqət mərkəzində saxlamışdır. Belə ki, 2005-ci ilin sentyabrında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Milli Komissiya ilə bağlı əlavə tədbirlər haqqında Sərəncam imzalamışdır.[42]

İxtisaslaşmış və aidiyyatı qurumların təmsilçilərindən ibarət yeni Milli Komissiyanın yaradılmasından sonra Azərbaycan – UNESCO əməkdaşlığında xüsusi dinamizm müşahidə olunmağa başlamış, elm və təhsil sahələrində çoxsaylı proqramlar və layihələr əsasında əməkdaşlığın inkişaf etdirilməsi imkanları genişlənmişdir. Nəzərə almaq lazımdır ki, Azərbaycan Respublikası hələ 1994-cü ildə Avropa regionu komitəsinə üzv seçilmişdir. Azərbaycan Respublikasının Avropa regionu komitəsinə üzv seçilməsinin başlıca əhəmiyyəti ondan ibarət idi ki, bununla ölkəmiz akademik tanınma konvensiyasına qəbul edilmişdir. Bu da, Azərbaycana elm və təhsil sahəsində daha səmərəli əməkdaşlıq etmək imkanları vermiş, bu

---

[42] YUNESKO üzrə Azərbaycan Respublikasının Milli Komissiyası ilə bağlı əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı: [Elektron resurs] / 15 sentyabr 2005-ci il. URL: https://e-qanun.az/framework/10729; Azərbaycan – YUNESKO: [Elektron resurs] / URL: http://republic.preslib.az/az_a7-6.html

istiqamətdə beynəlxalq normativ sənədlərdə əksini tapmış öhdəliklərin qəbul olunması və onlara əməl olunması ilə bağlı da Azərbaycan tərəfinin mövqeyini ortaya qoymuşdur.

Ümumiyyətlə, təşkilatla birgə layihələrin həyata keçirilməsi, UNESCO kafedralarının yaradılması, beynəlxalq təhsil forumları, akademik mübadilələr elm və təhsilin inkişafı baxımından əhəmiyyətli idi.

Üçüncü fəslin ikinci paraqrafı **"Mədəniyyət sahəsində əməkdaşlıq"** adlanır. Bu yarımfəsildə göstərilir ki, UNESCO – Azərbaycan əməkdaşlığı hər şeydən öncə, Azərbaycanın milli-mədəni irsinin özününküləşdirilməsinin qarşısının alınması baxımından strateji əhəmiyyət kəsb edir. Ermənistan tərəfindən işğal olunan Azərbaycan ərazilərində çoxsaylı tarixi maddi mədəni irs nümunələri dağıdılmış və ya yararsız hala salınmış, bir çox tarixi Azərbaycan abidələri ermənilər tərəfindən saxtalaşdırılaraq özününküləşdirilmişdir.

Azərbaycan Respublikası mədəniyyətlərarası dialoqun inkişaf etdirilməsi istiqamətində UNESCO-nun proqram və layihələrində fəal iştirak edir. 2003-cü ilin iyulunda UNESCO tərəfindən Azərbaycan Respublikasının da yaxından iştirakı ilə "GUAM ölkələri arasında Şərq – Qərb mədəniyyətlərarası dialoq: Avropa – Qafqaz – Asiya mədəniyyət dəhlizinin yaradılması" mövzusunda toplantının keçirilməsi yeri kimi paytaxt Bakının seçilməsi qlobal mədəniyyətlərarası dialoqun inkişaf etdirilməsində ölkəmizin potensialının obyektiv qiymətləndirilməsi idi. 2008-ci ilin dekabrında Bakıda "Mədəniyyətlərarası dialoq Avropa və onun qonşu regionlarında davamlı inkişafın və sülhün əsasıdır" mövzusunda təşkil olunmuş konfransda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən irəli sürülmüş "Bakı prosesi" mədəniyyətlərarası dialoqun inkişaf etdirilməsinə xidmət edəcək unikal təşəbbüs idi.[43] "Bakı prosesi" qısa müddətdə beynəlxalq təşəbbüsə çevrilmiş və Azərbaycanın əsl multikultural ölkə imicini daha da möhkəmləndirmişdir. Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun hər iki ildən bir Azərbaycanda keçirilməsi də

---

[43] Baku Process: The Power on Intercultural Dialogue in a diverse world. 3-rd Intercultural Dialogue, Baku, 2015.

bunu dəqiqliklə sübut edir. Belə ki, 2011, 2013, 2015, 2017, 2019, 2024-cü illərdə Bakıda altı Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumları keçirilmişdir.

Tədqiq olunan dövrdə, 19 qeyri-maddi mədəni irs nümunəsi UNESCO-nun Qeyri-maddi Mədəni İrsinin Reprezentativ Siyahısına daxil edilmişdir.[44]

UNESCO-nun yubileylər proqramı çərçivəsində keçirilən tədbirlər Azərbaycanın zəngin mədəni irsinin beynəlxalq təşkilatlar tərəfindən tanınmasına və görkəmli Azərbaycan mütəfəkkirləri, şəxsiyyətləri haqqında daha geniş ictimaiyyətə məlumatın çatdırılmasına şərait yaratmışdır.

Üçüncü fəslin üçüncü paraqrafı "**İkinci Qarabağ müharibəsindən sonra mədəni irsin bərpası və Azərbaycan – UNESCO əməkdaşlığı**" adlanır. Bu paraqrafda göstərilmişdir ki, Prezident İlham Əliyevin Ali Baş Komandanlığı ilə Azərbaycan Ordusunun cəmi 44 gün ərzində 30 illik erməni işğalına son qoyması nəticəsində bütün dünya Ermənistanın mədəni irsimizə qarşı törətdiyi vəhşiliklərin, barbarlığın bir daha şahidi oldu. İşğaldan azad olunmuş ərazilərdə Ermənistan tərəfindən 700-dən çox tarixi abidə, 60-dan çox məscid, 22 muzey, o cümlədən 100 000 muzey eksponatı, 927 kitabxana, 58 arxeoloji obyekt, 26 qala və qala divarı və digər mədəni irs obyektləri dağıdılaraq, talan edilmiş və ya mənimsənilmişdir.[45] Azərbaycan, tarixi ərazilərinin işğalı dövründə, Qarabağ bölgəsinə missiya təşkil etmək üçün dəfələrlə UNESCO-ya müraciət etsə də, təşkilat bunu həyata keçirməməsinin səbəbini siyasətə qarışmaması ilə əlaqələndirirdi. 2022-ci il fevralın 4-də Azərbaycan, Fransa və Avropa İttifaqı Şurası Prezidentlərinin, həmçinin Ermənistanın Baş nazirinin iştirakı ilə videoformatda keçirilmiş görüşdə UNESCO-nun Azərbaycana və Ermənistana ayrı-

---

[44] Azərbaycan – UNESCO münasibətləri: [Elektron resurs] / URL: https://mfa.gov.az/Az/category/beynelxalq-teskilatlar/azerbaycan-unesco-munasibetleri

[45] Mədəni irsə ziyan: [Elektron resurs] / URL: https://www.mfa.gov.az/az/category/ermenistanin-azerbaycana-qarsi-tecavuzunun-fesadlari/medeni-irse-ziyan

ayrı missiyalarının göndərilməsinə dair razılıq əldə olunmasına baxmayaraq, bu qərar təmin olunmamışdır.[46]

Ümumiyyətlə, belə qənaətə gəlmək olar ki, Azərbaycan UNESCO ilə əməkdaşlığa hər zaman böyük önəm verdiyindən konstruktiv dialoqa açıq olmuş, təşkilatdan eyni və bərabər münasibəti, ədalətli və vicdanlı yanaşmanı gözləmişdir.

**Nəticə** hissəsində tədqiqatla bağlı əldə edilmiş əsas elmi nəticələr öz əksini tapmışdır. İlk növbədə, belə nəticəyə gəlinmişdir ki, UNESCO dünyada "yumşaq güc" və xarici siyasət vasitəsi kimi çıxış edir.

İkincisi, UNESCO-nun irəli sürdüyü təşəbbüs və layihələrdə Azərbaycanın iştirakı dövlətimizin sivilizasiyalararası əməkdaşlıqda mərkəzi rolunu göstərirdi.

Üçüncüsü, Heydər Əliyev Fondu milli və mədəni irsin qorunmasında Azərbaycan mədəniyyətinə töhfə verməklə yanaşı, UNESCO-nun fəaliyyətinə dəstək göstərmişdir.

Nəhayət, təşkilat Ermənistanın işğalı nəticəsində Azərbaycanın dağıdılmış şəhərləri, kəndləri, mədəni irsinə münasibətdə obyektiv münasibət göstərməmişdir.

**Dissertasiya işinin əsas məzmunu müəllifin çap etdirdiyi aşağıdakı elmi əsərlərində öz əksini tapmışdır:**


1. Akbarli, N.F. Heydar Aliyev's role in the establishment of Azerbaijan-UNESCO relations // Heydər Əliyev Multikulturalizm və Tolerantliq ideologiyası, I Beynəlxalq Elmi Konfransın materialları, – Bakı: – 9 aprel-5 may, – 2018, №1, – s. 302-303.
2. Əkbərli, N.F. UNESCO-nun strukturu və fəaliyyət prinsipləri // – Bakı: Tarix və onun Problemləri, – 2019. №3, – s. 292-298.
3. Əkbərli, N.F. UNESCO və Azərbaycanın humanitar siyasəti // – Bakı: Geostrategiya, – 2019, № 05(53), – s. 75-79.


[46] İlham Əliyevin, Fransa Prezidentinin, Avropa Şurası Prezidentinin və Ermənistanın baş nazirinin iştirakı ilə videoformatda görüş keçirilib: [Elektron resurs] / URL: https://president.az/az/articles/view/55368/print

4. Əkbərli, N.F. Müasir mərhələdə UNESCO-nun əsas fəaliyyət istiqamətləri // – Bakı: Odlar Yurdu Universitetinin Elmi və Pedaqoji Xəbərləri, – 2019. № 52, – s. 173-178.
5. Əkbərli, N.F. Təhsil, elm və mədəniyyət sahəsində əməkdaşliq Azərbaycanin humanitar xarici siyasətinin mühüm istiqamətlərindən biri kimi // Beynəlxalq münasibətlərin aktual problemləri mövzusunda keçirilən Respublika Elmi Konfransın materialları, – Bakı: – 25 oktyabr, – 2019. – s. 353-357.
6. Akbarli, N.F. The main activities of UNESCO currently // – Kiev: – Гилея, – 2019. – s. 23-26.
7. Əkbərli, N.F. Heydər Əliyev Fondunun Azərbaycan-UNESCO əməkdaşlığında yeri və rolu // – Bakı: ADPU, Pedaqoji Universitetinin xəbərləri, – 2020. № 2, – s. 107-114.
8. Akbarli, N.F. Essence and directions of humanitarian foreign policy // – Uzhgorod National University, jounal of “Regional Studies”, – 2020. № 20, – s. 158-162.
9. Акперли, Н.Ф. Миссии международных организаций в области науки, образования и культуры // Исследование путей развития научно-технического потенциала общества в стратегическом периоде, Материалы Международной научно-практической конференции, – Moskva: – 24 noyabr , – 2022, – s. 60-63.
10. Əkbərli, N.F. Maddi-mədəni, dini irsimizin erməni vandalizminə məruz qalması və bu cinayətlərə YUNESKO-nun münasibəti // – Bakı: Tarix və onun Problemləri. – 2024. № 2, – s. 176-180.



Dissertasiyanın müdafiəsi "30" "oktyabr" 2025-ci il tarixində saat 11-00-da nəzdində fəaliyyət göstərən FD 2.30 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: Bakı, AZ 1001, Lermontov küçəsi, 74.

Dissertasiya ilə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat "29" "sentyabr" 2025-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 25.09.2025
Kağızın formatı: A5
Həcm: 43856
Tiraj: 100